**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**MAHMUDOV RƏŞİD BƏHRUZ OĞLU**

# AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT-PROSESSUAL QANUNVERİCİLİYİNƏ GÖRƏ İBTİDAİ İSTİNTAQ MƏRHƏLƏSİNDƏ CİNAYƏT İŞİ ÜZRƏ İCRAATIN DAYANDIRILMASI VƏ TƏZƏLƏNMƏSİ

5612.01 – Cinayət prosesi; kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

Dissertasiya işi Bakı Dövlət Universitetinin «Cinayət prosesi» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **F.M. CAVADOV**
hüquq üzrə elmlər doktoru,
professor

**Rəsmi opponentlər:** **A.M. CƏFƏROV**
hüquq üzrə elmlər doktoru,
Azərbaycan Respublikasının
əməkdar hüquqşünası

**A.Ə. TEYMUROV**
hüquq üzrə fəlsəfə doktoru,

**Aparıcı təşkilat:**

Dissertasiya işinin müdafiəsi « »____________ 2016-cı il tarixdə saat __:__-da FD.01.103 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 31, AMEA, Fəlsəfə İnstitutu, IX mərtəbə, akt zalı.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat « » ____________ 2016-cı il tarixdə göndərilmişdir.

**FD.01.103 Dissertasiya Şurasının**
**elmi katibi, h.ü.f.d., dos.** **X.Ə. Bayramzadə**

# I. İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Cinayətkarlıqla mübarizənin gücləndirilməsi, hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi ölkədə mütəşəkkil cinayətkarlıqla mübarizə apara biləcək hüquqi dövlətin yaradılmasının ayrılmaz şərtləridir. Hazırki dövrdə cinayət-prosessual qanunvericiliyi ona yönəlmişdir ki: qanunla cinayət hesab olunan əməli törətmiş hər bir şəxsi ifşa etmək və cinayət məsuliyyətinə cəlb etmək mümkün olsun; cinayət törətməkdə təqsiri olmayan heç kəsi cinayət prosesini həyata keçirən orqanların vəzifəli şəxslərinin və ya hakimlərin özbaşına hərəkətləri ilə qanunsuz şübhə altına almaq, ittiham və ya məhkum etmək mümkün olmasın; heç kəs qanunsuz və ya zərurət olmadan prosessual məcburiyyət tədbirlərinə, insan və vətəndaş hüquq və azadlıqlarının digər məhdudiyyətlərinə məruz qalmasın. Bu fundamental vəzifənin həlli yalnız cinayətlərin üstünün vaxtında, tez və tam şəkildə açılması, həmin cinayətləri törədən şəxslərin cinayət təqibi, obyektiv ibtidai istintaq və məhkəmə baxışı, prosessual normalara dəqiq riayət edilməklə qanunun düzgün tətbiq edilməsi yolu ilə mümkündür.

Cinayət işi üzrə ibtidai istintaq aparılarkən istintaqın adi qaydada davam edə bilməyəcəyi hallara tez-tez rast gəlinir. Belə hallarda cinayət işləri üzrə fəaliyyət cinayət-prosessual hüququn prosessual normaların məcmusundan əmələ gələn ibtidai istintaqın dayandırılması adlı müstəqil institut vasitəsilə tənzim edilir.

Hazırda törədilmiş cinayətlərin sayının artması ilə əlaqədar açılmış cinayət işlərinin sayı da artmaqdadır. Bu halda, göstərilən prosessual institutun tətbiqi cinayət prosesinin nəzəriyyəsi və praktikasının aktual problemlərindən hesab edilir. Təcrübə göstərir ki, ümumən başlanılmış işlər içərisində dayandırılmış cinayət işlərinin çəkisi artır. Məsələn, 2015-ci ildə Azərbaycan Respublikasının istintaq orqanlarında 27553 iş başlanılmışdır ki, onların da 8080-i (29.3%) dayandırılmış, 2863-ü (10.4%) isə təzələnmişdir. Əvvəlki illərdə isə bu statistika aşağıdakı kimi olmuşdur: 2014-cü ildə 25473 iş başlanılmış, 7468-i (29.3%) dayandırılmış, 2724-ü (10.6%) təzələnmişdir, 2013-cü ildə 29322 iş başlanılmış, 6225-i (21.2%) dayandırılmış, 1444-i (23.1%) təzələnmişdir, 2012-ci ildə 26134 iş başlanılmış, 5518 (21,1%) iş dayandırılmış, 687-i (12.5%) təzələnmişdir, 2011-ci ildə 25044 iş başlanılmış, 6384 (25,5%) iş dayandırılmış, 1381-i (21,6%) təzələnmişdir, 2010-cu ildə 22393 iş

başlanılmış, 4998-i (22.3%) dayandırılmış, 1448-i (6.5%) təzələnmişdir, 2009-cu ildə 22010 iş başlanılmış, 4750 (21,6%) iş dayandırılmış, 1351-i (28,4%) təzələnmişdir. 2008-ci ildə 19701 iş başlanılmış, 3834 (19.4%) iş dayandırılmış, 1082-i (5.5%-i) təzələnmişdir, 2007-ci ildə 18252 iş başlanılmış, 3077 (16.9%) iş dayandırılmış, 924 (5.1%) iş təzələnmişdir, 2006-cı ildə 18619 iş başlanılmış, 3203 (17.2%) iş dayandırılmış, 1068 (5.7%) iş təzələnmişdir, 2005-ci ildə 18097 iş başlanılmış, 3522 (19.5%) iş dayandırılmış, 1108 (6.1%) iş təzələnmişdir, 2004-cü ildə 16893 iş başlanılmış, 3233 (19.1%) iş dayandırılmış, 991 (5.9%) iş təzələnmişdir, 2003-cü ildə 15323 iş başlanılmış, 2955 (19.3%) iş dayandırılmış, 930 (6.1%) iş təzələnmişdir və s.

Təəssüf ki, cinayət törətmiş hər bir şəxsin cinayət məsuliyyətinə vaxtında və ya ümumiyyətlə cəlb edilməməsi ölkədə kriminogen vəziyyəti əhəmiyyətli dərəcədə ağırlaşdırır. Bu isə, öz növbəsində, cinayət işləri üzrə həqiqətin müəyyən olunması, vətəndaşların cinayət nəticəsində pozulmuş hüquq və qanuni maraqlarının bərpa edilməsi prosesini çətinləşdirir, habelə bir sıra hallarda proses iştirakçılarının təhlükəsizliyini təhdid edir, onlar barəsində hüquqazidd hərəkətlərə yol verilir. Bununla əlaqədar olaraq dayandırılmış cinayət işləri üzrə, o cümlədən gizlənmiş təqsirləndirilən şəxslərin axtarışı ilə bağlı məsələlər üzrə işin təkmilləşdirilməsi zəruridir.

**Tədqiqat mövzusunun elmi işlənmə səviyyəsi.** Azərbaycanda tədqiqat mövzusuna dair daha əvvəllər R.S.Kazımov (*Məhkəməyədək və məhkəmə mərhələsində dayandırılmış cinayət işlərinin təzələnməsinin problemləri və onların həlli yolları, H.ü.f.d. … diss., Bakı, 2014*) tərəfindən müstəqil dissertasiya işi yazılmışdır. Bundan başqa, cinayət işi üzrə icraatın dayandırılması və dayandırılmış icraatın təzələnməsi problemi bir çox xarici prosessualist-alim tərəfindən müstəqil tədqiqat işi şəklində işlənmişdir. Onların sırasına aşağıdakılar aiddir: M.S.Yeqorova (*Институт приостановления производства по уголовному делу и обеспечение прав и законных интересов участников уголовного процесса при реализации его норм. Дисс. ... к.ю.н. Волгоград, 2003*); E.F.Zakirova (*Приостановление предварительного следствия в случае, когда подозреваемый или обвиняемый скрылся от следствия, либо место его нахождения не установлено по иным причинам. Дисс. ... к.ю.н. Ижевск, 2004*); X.J.Kenjayev (*Актуальные проблемы приостановления предварительного следствия. Дисс. ... к.ю.н. Москва, 1995*); M.V.Korolyov (*Приостановление предварительного следствия в связи с психическим или иным тяжким*

*заболеванием обвиняемого. Дисс. ... к.ю.н. Москва, 2000*); A.V.Koçetova (*Актуальные вопросы института приостановления производства по уголовному делу. Дисс. ... к.ю.н. Челябинск, 2006*); N.A.Patov (*Процессуальные и организационные основы производства по уголовным делам, приостановленным в связи с неустановлением лица, подлежащего привлечению в качестве обвиняемого. Дисс. ... к.ю.н. М., 1997*); A.M.Popov (*Проблемы совершенствования оснований и условий приостановления предварительного следствия. Дисс. ... к.ю.н. Саратов, 2004*); V.V.Ryabçikov (*Приостановление и возобновление предварительного расследования. Дисс. ... к.ю.н. Владимир, 2006*); Y.K.Çerkasova (*Правовое регулирование приостановления и возобновления уголовно-процессуальной деятельности. Дисс. ... к.ю.н. Омск, 2004*) və s.

Milli qanunvericilikdə problemin ayrı-ayrı aspektləri C.H.Mövsümov, M.Ə.Cəfərquliyev, F.M.Abbasova, F.M. Cavadov, C.İ.Süleymanov, A.M. Cəfərov, M.X. Mustafayev, F.Y. Xəlilov və digər tanınmış alimlər tərəfindən tədqiq olunmuşdur. Qeyd etmək lazımdır ki, həm xarici və həm də respublikamızın tanınmış alimləri tərəfindən dissertasiyamızın təhlili obyektinə daxil olan məsələlərin araşdırılması bizim tədqiqata da öz töhvəsini vermişdir.

**Dissertasiya tədqiqatının məqsədi** ibtidai istintaq mərhələsində cinayət işləri üzrə icraatın dayandırılması və dayandırılmış icraatın təzələnməsi institutlarını tənzim edən cinayət-prosessual hüquq normalarının təhlili əsasında onların hüquqi tənzimetmə problemlərini aşkar etmək və sonuncuların aradan qaldırılması istiqamətində əsaslandırılmış təkliflər işləyib hazırlamaqdan ibarətdir.

Bununla bağlı aşağıdakı **vəzifələrin** həllinə səy göstərilmişdir:

1) cinayət işləri üzrə icraatın dayandırılması və təzələnməsinin mahiyyətini və əhəmiyyətini müəyyən etmək;

2) cinayət işləri üzrə icraatın dayandırılması və təzələnməsi institutunu təsbit edən hüquq normalarının inkişaf tarixini və müasir vəziyyətini nəzərdən keçirmək;

3) cinayət mühakimə icraatının vəzifələrinin həllində və ilk növbədə, cinayət prosesinin iştirakçılarının hüquq və qanuni maraqlarının hərtərəfli müdafiəsi baxımından bu hüquq institutunun əhəmiyyətini aydınlaşdırmaq;

4) cinayət işi üzrə icraatın dayandırılması və təzələnməsinin əsasları və şərtləri sistemini təhlil edib, onun optimallaşdırılması yollarını təklif etmək;

5) cinayət işləri üzrə icraatın dayandırılması və təzələnməsinin prosessual qaydasını tədqiq etmək, qanunvericiliyin və hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi üzrə elmi cəhətdən əsaslandırılmış tövsiyə və təkliflər irəli sürmək.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini cinayət işi üzrə icraatın dayandırılması və təzələnməsi ilə bağlı yaranan cinayət-prosessual hüquq münasibətləri təşkil edir. Tədqiqatın predmetini cinayət işi üzrə icraatın dayandırılması və təzələnməsi əsaslarını və şərtlərini, habelə bu prosessual qərarların qəbul edilməsi və həyata keçirilməsi qaydasını müəyyən edən hüquq normalarının məcmusu, hüquq-mühafizə orqanlarının müvafiq fəaliyyəti, tədqiq edilən problemə həsr edilmiş xüsusi hüquq ədəbiyyatı təşkil edir.

**Tədqiqatın metodoloji əsasını** dialektik materializm təlimi, **metodikasını** isə müqayisəli hüquqşünaslıq, formal-məntiqi təhlil, statistik, tarixi, sistemli-struktur və digər idrak metodları təşkil edir.

**İşin nəzəri əsasını** cinayət işi üzrə icraatın dayandırılması və təzələnməsi problemi ilə bağlı məsələləri tədqiq etmiş cinayət prosesi, cinayət hüququ, dövlət və hüquq nəzəriyyəsi üzrə hüquqşünas alimlərin elmi əsərləri təşkil etmişdir. Tədqiqat prosesində qüvvədə olan və artıq qüvvədən düşmüş cinayət və cinayət-prosessual qanunvericilik təhlil və müqayisə edilir.

**İşin normativ əsasını** Azərbaycan Respublikasının Konstitusiyası, Cinayət-Prosessual Məcəlləsi, Cinayət Məcəlləsi, bir sıra digər qanunlar, eləcə də bəzi xarici dövlətlərin cinayət-prosessual qanunvericiliyi təşkil etmişdir.

**Tədqiqatın empirik bazası.** Müəllif tərəfindən Azərbaycan Respublikasının istintaq orqanlarının istintaq təcrübəsindən çoxsaylı materiallar öyrənilmişdir. Prokurorluq orqanlarının 2003-2015-ci illər üzrə statistik məlumatlarından istifadə edilmişdir.

**İşin elmi yeniliyi** tədqiqata əsaslanan nəticələrin və müdafiəyə çıxarılmış müddəaların elmi yeniliyi ilə izah edilir. Dissertasiya işində müəllif tərəfindən ibtidai istintaq mərhələsində cinayət işi üzrə icraatın dayandırılması, eləcə də dayandırılmış icraatın təzələnməsi institutlarına yeni anlayışlar verilmiş, o cümlədən cinayət işi üzrə icraatın dayandırılması və dayandırılmış icraatın təzələnməsi institutlarının hüquqi tənzimlənməsinin bir sıra yeni həlli yolları təklif edilmişdir.

**Müdafiəyə çıxarılan aşağıdakı əsas müddəalar:**

1. İbtidai istintaq mərhələsində cinayət işi üzrə icraatın dayandırılmasına, eləcə də dayandırılmış icraatın təzələnməsinə aşağıdakı məzmunlarda müəllif anlayışları verilir.

İbtidai istintaq mərhələsində cinayət işi üzrə icraatın dayandırılması – qanunla nəzərdə tutulmuş hallar və şərtlər mövcud olduqda icraatında müvafiq cinayət işi olan müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun əsaslandırılmış qərarı ilə ibtidai istintaq müddətlərinin lüzumsuz axımında qanuni şəkildə müvvəqqəti fasiləni təmin edən hüquq institutudur.

İbtidai istintaq mərhələsində cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsi – icraatı dayandırılmış cinayət işi üzrə yenidən ayrı-ayrı istintaq hərəkətlərinin həyata keçirilməsini və ya bütövlükdə iş üzrə icraatın sona çatdırılmasını təmin edən hüquq institutudur;

2. İşin məzmununda cinayət işi üzrə icraatın dayandırılması haqqında qərarın qəbul edilməsinin dispozitiv hüquqi tənzimetmə metodu ilə tənzimlənməli olması fikri əsaslandırılır və AR CPM-in 277.1-ci maddəsində «dayandırılır» ifadəsinin «dayandırıla bilər» ifadəsi ilə əvəz edilməsi təklif edilir;

3. AR CPM-in 53.1.1-ci maddəsi mahiyyətcə, cinayət təqibi orqanlarının sərəncamında cinayətin subyektinin şəxsiyyəti barədə informasiyanın olmamasını nəzərdə tutur. Cinayət işinin istintaqı zamanı əslində cinayəti törətmiş şəxsin antropologiya baxımından bir sıra xüsusatları müəyyənləşdirilsə də onun şəxsiyyəti müəyyən edilməmiş qala bilər. Şəxsiyyəti müəyyən edilmədən barəsində kriminalistik əhəmiyyətli məlumatlar əldə edilmiş şəxs barəsində təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs kimi danışmaq doğru deyildir. Cinayət-prosessual qanunvericilikdə «şəxs müəyyən olunmadıqda» ifadəsi kriminalistik baxımdan geniş anlayış kimi başa düşülə bilər. Cinayət işinin ibtidai istintaqının dayandırılması əsası isə həmin şəxsin şəxsiyyətinin müəyyən edilməməsidir. Bu baxımdan AR CPM-in 53.1.1-ci maddəsinin təkmilləşdirilərək aşağıdakı redaksiyada verilməsi təklif edilir: «53.1.1. iş üzrə şübhəli şəxs mövcud olmadıqda və ya təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin şəxsiyyəti müəyyən olunmadıqda»;

4. AR CPM-in 53.1.4-cü maddəsində ifadə edilmiş «ağır xəstəlik» termini altında xəstəliyin bu və ya digər növünü (növlərini) deyil, istənilən bir xəstəliyin dərəcəsi anlamında ağırlığını başa düşmək

lazımdır. Hər bir xəstəliyin ağırlıq dərəcəsinin müəyyən edilməsi isə xüsusi simptomlar və nişanələr əsasında yalnız xüsusi biliklərin tətbiqi nəticəsində müəyyən edilə bilər. Prosessual formasının daha təkmil olması səbəbindən ekspert rəyi arayış və ya çıxarış kimi sənədlərlə ehtiva və ya əvəz edilməməlidir. Odur ki, AR CPM-in 53.3.4-cü maddəsində qeyd edilən tibbi rəy terminini yalnız məhkəmə-tibb ekspertizasının rəyi kimi başa düşmək lazımdır. Eyni zamanda AR CPM-in 53.1.4-cü maddəsində «ağır xəstəlik» ifadəsi əvəzinə «xəstəliyin ağırlıq dərəcəsi» ifadəsinin işlədilməsi daha məqsədəuyğundur;

5. Cinayət işi üzrə icraatın dayandırılması üçün təqsirləndirilən şəxsin xəstəliyi səbəb kimi çıxış edərkən əsas kriteriya olaraq həmin xəstəliyin təqsirləndirilən şəxsin cinayət prosesində iştirak etməsinə həm subyektiv (xəstəliyin təqsirləndirilən şəxsin öz həyat və sağlamlığı üçün yaratdığı təhlükə, xəstəlik səbəbindən müxtəlif qabiliyyətlərin itirilməsi və s.), həm də obyektiv (şəxsin xəstəliyinin cinayət prosesinin digər iştirakçıları üçün yoluxma təhlükəsi yaratması) amillər səbəbindən mane olub-olmaması götürülməli və bu zaman təkcə xəstəliyin ağırlıq dərəcəsi deyil, onun xarakteri – yoluxdurma təhlükəsi də nəzərə alınmalıdır;

6. AR CPM-in 53.3.4-cü maddəsində «şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi barədə Azərbaycan Respublikasının Baş prokurorunun təqdimatı» sözlərinin «şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi barədə müvafiq olaraq Azərbaycan Respublikası Baş prokurorunun və Naxçıvan Muxtar Respublikası prokurorunun təqdimatı» sözləri ilə əvəz olunması təklif edilir və işin məzmununda səbəbi əsaslandırılır;

7. Dissertasiyanın məzmununda AR CPM-in 53.1.4-cü maddəsinin aşağıdakı redaksiyada təkmilləşdirilməli olması əsaslandırılır: «53.1.4 … Azərbaycan Respublikasının hüdudlarından kənarda olması və ya cinayət prosesində iştirakına reallıqda imkan olmaması ilə bağlı cinayət prosesində iştirakı müvəqqəti olaraq mümkün olmadıqda»;

8. Müəllif tərəfindən cinayət işləri üzrə icraatın dayandırılması əsaslarının genişləndirilməsi istiqamətində təklif irəli sürülür və onun qanunvericilikdə aşağıdakı formada təsbit edilməsi təklif edilir: «53.1-1. cinayət nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi barədə təqsirləndirilən və zərər çəkmiş şəxslər arasında sazişə nail olunması ilə bağlı müstəntiq ibtidai istintaqı həmin sazişin yerinə yetirildiyi müddət ərzində, lakin bir ildən çox olmamaqla dayandıra bilər»;

9. İbtidai istintaq mərhələsində cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsinin prosessual formasının təkmilləşdirilməsi istiqamətində müəllif tərəfindən aşağıdakı məzmunda təkliflər irəli sürülür və işin məzmununda əsaslandırılır:

9.1. Qeyd edilir ki, AR CPM-in 279.1-ci maddəsində icraatın təzələnməsi subyektlərinə dair müvafiq sistem gözlənilməli və maddəyə «müstəntiqin» sözündən sonra «prokurorun və ya məhkəmənin» sözləri əlavə edilməlidir;

9.2. Qüvvədə olan cinayət-prosessual qanunvericilikdə icraatı dayandırılmış iş üzrə icraatın təzələnməsi haqqında qərarın prosessual formasına dair boşluğun aradan qaldırılması məqsədi ilə təklif edilir ki, AR CPM-in 279.2-ci maddəsinə aşağıdakı məzmunda yeni cümlə və bəndlər əlavə edilsin:

«279.2. … Cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsi haqqında qərarda aşağıdakılar göstərilməlidir:

279.2.1. qərarın çıxarıldığı tarix, vaxt və yer;

279.2.2. qərarı qəbul edən şəxsin soyadı, adı, atasının adı, vəzifəsi;

279.2.3. cinayət işi üzrə icraatın nə vaxt və kim tərəfindən dayandırıldığı;

279.2.4. cinayət işi üzrə icraatın dayandırılması üçün səbəb olan hallar;

279.2.5. cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsi üçün səbəb olan hallar;

279.2.6. cinayət işi üzrə icraat təqsirləndirilən şəxsin iştirakı olmadan həyata keçirilməsi mümkün olan prosessual hərəkətlərin həyata keçirilməsi üçün təzələndiyi hallarda hansı prosessual hərəkətlərin həyata keçiriləcəyi»;

9.3. AR CPM-in 279.4-cü maddəsində «təqsirləndirilən şəxsə və müdafiəçiyə» sözlərindən əvvəl «şəxsiyyəti və olduğu yer məlum olduqda» sözləri əlavə edilməsi təklif edilir. Əsaslandırılır ki, dayandırılmış icraatın təzələnməsi haqqında qərarın qəbul edilməsi barədə məlumat vermənin məcburi tərkib elementi kimi mütləq həmin qərarın surətinin məlumat alan şəxsə təqdim edilməsi çıxış etməlidir. Bu məqsədlə AR CPM-in 279.4-cü maddəsində «nümayəndələrinə» sözündən sonra «müvafiq qərarın surətini təqdim etməklə» sözlərinin əlavə edilməsi təklif edilir;

**İşin nəzəri və təcrübi əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyada irəli sürülən müddəalar, nəticələr və təkliflər aşağıdakı sahələrdə istifadə oluna bilər:

1) cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsi üzrə qanun yaradıcılığı fəaliyyətində;

2) cinayət-prosessual fəaliyyətin dayandırılması və təzələnməsi ilə bağlı problemli situasiyaların həlli məqsədilə məhkəmə, prokurorluq və hüquq-mühafizə orqanlarının fəaliyyətində;

3) ali məktəblərin hüquq fakültələrində cinayət prosesi kursunun tədrisində, habelə məhkəmə, prokurorluq və hüquq-mühafizə orqanları əməkdaşlarının ixtisasının artırılması sistemində;

4) cinayət-prosessual fəaliyyətin dayandırılması və təzələnməsi ilə bağlı problemlərin gələcəkdə işlənməsi zamanı elmi-tədqiqat işlərində.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiyanın əsas müddəaları müəllifin Azərbaycan Respublikasının və xarici dövlətlərin nüfuzlu elmi jurnallarında nəşr olunmuş elmi məqalələrində şərh edilmiş, Bakı Dövlət Universitetinin «Cinayət prosesi» kafedrasının iclaslarında məruzə edilmişdir.

Dissertasiyada tədqiq olunmuş ayrı-ayrı məsələlər ilə bağlı elmi-praktiki konfranslarda müəllif tərəfindən çıxışlar edilmiş, həmin konfransların çap olunmuş materiallarında elmi işin mövzusu ilə bağlı elmi məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin strukturu.** İşin həcmi tədqiqatın məqsədləri və vəzifələri ilə şərtlənir. Dissertasiya işi girişdən, üç fəsildən, nəticədən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun aktuallığı əsaslandırılmaqla, mövzunun elmi işlənmə dərəcəsi, təqdiqatın məqsəd və vəzifələri, obyekt və predmeti, elmi yeniliyi, metodologiyası, nəzəri və təcrübi əhəmiyyəti, müdafiəyə təqdim edilən müddəalar və s. haqqında ətraflı məlumat verilir.

Dissertasiyanın **birinci fəsli «Cinayət işi üzrə icraatın dayandırılması və dayandırılmış icraatın təzələnməsi institutlarının ümumi xarakteristikası»** adlanır. Bu fəslin **«Cinayət işi üzrə icraatın dayandırılması və dayandırılmış icraatın təzələnməsi institutlarının inkişaf tarixi»** adlanan birinci yarımfəslində qeyd edilir ki, tarixi-hüquqi təhlil nəticəsində hüquq institutlarının hüquqi əsasları, subyektlərinin dairəsi, prosessual forması, cinayət prosesi sistemindəki yeri və s. əhəmiyyətli elementlərində baş vermiş dəyişikliklər haqqında

müfəssəl təsəvvür əldə etməklə tədqiq olunan problemin genezis məsələlərini dərk etmək mümkündür.

Tarixi araşdırmalar göstərir ki, Çar Rusiyasının 1864-cü il tarixli Cinayət Mühakimə icraatı Nizamnaməsinədək ibtidai istintaqın dayandırılması institutu mövcud olmamışdır. 1864-cü il CMİN-də icraatın dayandırılmasının ümumilikdə beş əsasının olduğunu müşahidə etmək olar. Azərb. SSR-in 1923-cü il tarixli birinci Cinayət-Prosessual Məcəlləsində XVII fəsil «İbtidai istintaqın dayandırılması və qurtarması» adlanırdı, həmin fəsil özündə 199-208-ci maddələri birləşdirirdi. Həmin Məcəllənin 119-cu maddəsinə əsasən, ibtidai istintaq aşağıdakı hallarda dayandırılırdı: a) müttəhimin olduğu yer məlum olmadığı halda; b) onun ruhi pozğunluğu və ya dövlət xidmətində olan həmin tərəfin təsdiq edilən başqa ağır xəstə vəziyyətdə olduğu halda.

Azərb. SSR-in 1961-ci il tarixli ikinci Cinayət-Prosessual Məcəlləsində XVIII fəsil «İbtidai istintaqın dayandırılmasının əsasları» adlanırdı, həmin fəsil özündə 209-214-cü maddələri birləşdirirdi.

Həmin Məcəllənin 209-cu maddəsinə əsasən, ibtidai istintaq aşağıdakı hallarda dayandırılırdı: 1) müqəssir istintaqdan və ya məhkəmədən qaçıb gizləndikdə və ya sair səbəblərə görə onun olduğu yer müəyyən edilmədikdə; 2) müqəssir psixi və ya sair ağır xəstəliyə tutulmuş olduqda və bu, həkim tərəfindən təsdiq edildikdə – məhkəmə tibb eksperti və ya psixiatriya eksperti tərəfindən müqəssirin, müstəntiqin yanına gəlməsinə imkan verməyən ağır və uzun sürən, lakin müalicə oluna bilən xəstəliyə tutulması müəyyən edildikdə, cinayət işi üzrə ibtidai istintaq müqəssir sağalana qədər dayandırılmalı idi, bu zaman müqəssir haqqında seçilmiş qətimkan tədbiri müstəntiq tərəfindən saxlanıla, dəyişdirilə və ya ləğv edilə bilərdi; 3) cinayət etmiş şəxs müəyyən olunmadıqda – bütün istintaq hərəkətləri yerinə yetirildikdən sonra cinayət etməkdə təqsiri olan şəxs müəyyən olunmadığı halda, cinayət işi üzrə icraat dayandırıla bilərdi; belə halda müstəntiq həm bilavasitə, həm də təhqiqat orqanları vasitəsilə cinayəti etmiş şəxsin müəyyən olunması və onun cinayət məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görməli idi.

Yarımfəsildə adları sadalanan tarixi mənbələrdə, eləcə də 2000-ci il tarixli CPM-də cinayət işləri üzrə icraatın dayandırılması və dayandırılmış icraatın təzələnməsinin hüquqi tənzimlənməsində baş vermiş dəyişikliklər geniş tədqiq edilmişdir.

Birinci fəslin «**Cinayət işi üzrə icraatın dayandırılması və dayandırılmış icraatın təzələnməsi institutlarının anlayışı və prosessual təyinatı**» adlanan ikinci yarımfəslində göstərilir ki, ibtidai istintaq mərhələsində cinayət işi üzrə icraatın dayandırılmasının əsas xüsusatlarından biri – yalnız qanunda yol verilən hallarda cinayət işi üzrə icraatın dayandırılmasının mümkünlüyüdür. Cinayət işi üzrə icraatın dayandırılmasının daha bir əsas xüsusatı – cinayət işi üzrə icraatın dayandırılması üçün qanunla nəzərdə tutulmuş şərtlərin mövcud olmasıdır. İş üzrə icraatın dayandırılması, həmçinin müvəqqətilik əlamətinə malikdir. Müvəqqətilik əlaməti cinayət işi üzrə icraatın dayandırılması haqqında qərarın ibtidai istintaqın yekun aktı kimi çıxış etməsini istisna edir.

Hesab edirik ki, bütün qeyd edilənləri ümumiləşdirərək, ibtidai istintaq mərhələsində cinayət işi üzrə icraatın dayandırılmasına aşağıdakı müəllif anlayışını vermək olar: «İbtidai istintaq mərhələsində cinayət işi üzrə icraatın dayandırılması – qanunla nəzərdə tutulmuş hallar və şərtlər mövcud olduqda icraatında müvafiq cinayət işi olan müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun əsaslandırılmış qərarı ilə ibtidai istintaq müddətlərinin lüzumsuz axımında qanuni şəkildə müvəqqəti fasiləni təmin edən hüquqi institutdur».

Cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsi – cinayət işi üzrə icraatın dayandırılmasının məntiqi nəticəsidir, çünki dayandırılmış hər bir icraat gec və ya tez təzələnərək icraatın davam etdirilməsini təmin etmək məqsədi, başqa sözlə, icraatın davam etdirilməsinə mane olan halların neytrallaşdırılması məqsədi daşıyır. Cinayət işi üzrə icraatın dayandırılması ilə icraatın təzələnməsi zamanı yaranan qadağalar – istintaq hərəkətlərinin həyata keçirilməsinin yolverilməzliyi aradan qalxır, prosessual müddətlərin axımı bərpa olunur.

Cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsinin üç əsası mövcuddur:

1) cinayət işinin dayandırılmasına əsas olan halların aradan qalxması (məsələn, bu zaman cinayət törətmiş şəxsin müəyyən edilməsi, təqsirləndirilən şəxsin olduğu yerin müəyyən edilməsi, onun tutulması, yaxud özünü könüllü təslim etməsi və s. başa düşülməlidir);

2) təqsirləndirilən şəxsin iştirakı olmadan həyata keçirilməsi mümkün olan prosessual hərəkətlərin yerinə yetirilməsi zərurətinin yaranması (AR CPM-in 279.1.2-ci maddəsi);

3) ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmə nəzarətini həyata keçirən məhkəmənin qərarı ilə cinayət işi üzrə icraatın dayandırılması haqqında qərarın ləğv edilməsi.

İbtidai istintaq mərhələsində cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsinə aşağıdakı müəllif anlayışını vermək olar: «İbtidai istintaq mərhələsində cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsi – icraatı dayandırılmış cinayət işi üzrə yenidən ayrı-ayrı istintaq hərəkətlərinin həyata keçirilməsini və ya bütövlükdə iş üzrə icraatın sona çatdırılmasını təmin edən hüquqi institutdur».

Dissertasiya işinin ikinci fəsli **«İbtidai istintaq mərhələsində cinayət-prosessual fəaliyyətin dayandırılmasının əsaslarının, şərtlərinin və prosessual qaydasının məzmunu və hüquqi tənzimi»** adlanır. Bu fəslin **«İbtidai istintaq mərhələsində cinayət təqibi üzrə icraatın dayandırılmasının əsaslarının ümumi xarakteristikası»** adlanan birinci yarımfəslində qeyd edilir ki, AR CPM-in 53.1-ci maddəsində nəzərdə tutulmuş, cinayət təqibi üzrə icraatın dayandırılmasına yol verilən halların siyahısı qapalı xarakterlidir, yəni yalnız qanunla nəzərdə tutulan hallarda cinayət işi üzrə icraat dayandırıla bilər. Bununla belə, eyni bir cinayət işi üzrə və ya eyni bir şəxs barəsində icraatın dayandırılmasının bir neçə əsasının mövcudluğu istisna edilmir və bu zaman həmin əsaslar arasından hər hansı birinə üstünlük verməyə ehtiyac yoxdur, sadəcə olaraq, cinayət işi üzrə icraatın dayandırılması haqqında qərarda əsas kimi götürülən hər hansı bir halı təsdiq edən kifayət qədər sübutlara istinad edilməsi şərti gözlənilməlidir.

Cinayət işi üzrə icraatın dayandırılması üçün a) hüquqi əsas, b) faktiki əsas və c) qanuni motivlər fərqləndirilməlidir. Cinayət işi üzrə icraatın dayandırılmasının hüquqi əsası – qüvvədə olan cinayət-prosessual qanunvericiliklə nəzərdə tutulmuş və cinayət təqibi üzrə icraatın dayandırılması ilə bağlı hüquq münasibətlərini tənzim edən cinayət-prosessual hüquq normalarıdır. Cinayət işi üzrə icraatın dayandırılmasının faktiki əsası – istintaqın sonrakı gedişatına mane olan, aradan qaldırılmadan ibtidai istintaqın davam etdirilməsini obyektiv olaraq istisna edən, müstəntiqin qarşılaşdığı həyati hallardır. Cinayət işi üzrə icraatın dayandırılmasının qanuni motivi istintaqın normal gedişatına mane olan halların aradan qaldırılması istiqamətində tədbirlərin həyata keçirildiyi müddət ərzində ibtidai istintaq müddətlərinin lüzumsuz axımının qarşısının alınması və müvafiq

maneələrin aradan qaldırılmasından sonra ibtidai istintaq üzrə icraatın təzələnməsi və davam etdirilməsidir.

İkinci fəslin **«Təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs müəyyən edilmədikdə ibtidai istintaqın dayandırılması»** adlanan ikinci yarımfəslində AR CPM-in 53.1.1-ci maddəsi təhlil edilir. Fikrimizcə, AR CPM-in 53.1.1-ci maddəsinin mahiyyətini doğru dərk etmək üçün «təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs» kateqoriyasının nəyi ifadə etməsini aydınlaşdırmaq lazımdır. AR CPM-in özündə bu kateqoriyaya anlayış verilmir, lakin 91.1-ci maddədə təqsirləndirilən şəxsin anlayışı nəzərdə tutulur: «müstəntiqin, prokurorun və ya məhkəmənin təqsirləndirilən şəxs qismində cəlb etmə barədə qərar çıxardığı fiziki şəxs təqsirləndirilən şəxs kimi tanınır». Deməli, aralıq nəticə kimi təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs dedikdə, barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı çıxarılmalı olan şəxs başa düşülməlidir. Bəs şəxs barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı hansı qaydada çıxarılır? Bu suala AR CPM-in 223-cü maddəsinin müddəalarında cavab tapmaq olar. Belə ki, şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi üçün əsas cinayətin onun tərəfindən törədilməsinə dəlalət edən ilkin sübutların məcmusudur. Belə sübutlar olduqda müstəntiq şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında əsaslandırılmış qərar çıxarır. Deməli, hər hansı bir şəxsin barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı çıxarılması üçün cinayətin onun tərəfindən törədilməsinə dəlalət edən ilkin sübutların məcmusu tələb olunur. Belə çıxır ki, cinayət işinin ibtidai istintaqı zamanı əldə edilmiş ilkin sübutların məcmusu konkret olaraq hər hansı bir şəxsin cinayətə aidiyyətinə dəlalət etmirsə, təqsirləndirilən şəxs qismində cəlbetmə qərarının çıxarılmasına mane olur. Bu zaman bir mühüm məsələni nəzərə almaq lazımdır ki, təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin müəyyən edilməməsi hələ iş üzrə şübhəli şəxslərin mövcud olmaması kimi başa düşülməməlidir. İştirakçılıq olmadan törədilmiş bir cinayət epizodu üzrə bir neçə şübhəli şəxsin mövcudluğuna təcrübədə tez-tez rast gəlinir. Şübhəli şəxs artıq təqib olunan şəxs olsa da, hələ təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxslə eyniləşdirilə bilməz. Şəxsin şübhəli şəxs və təqsirləndirilən şəxs statuslarında çıxış etməsinin hüquqi və faktiki əsasları tamamilə fərqlidir. Bu anlamda, hətta iştirakçılıq olmadan törədilən cinayət işi üzrə bir neçə şübhəli şəxsin cinayətə aidiyyəti barədə fərziyyələr yoxlanılan müddət ərzində də təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs məlum olmur,

lakin hələ istintaq fərziyyələrinin yoxlanılması ilə əlaqədar təqsirləndirilən şəxsin iştirakı olmadan aparılması mümkün olan istintaq hərəkətləri mövcud olduğuna görə bu halda ibtidai istintaq dayandırıla bilməz. İş üzrə şübhəli şəxsin mövcud olduğu (şübhəli şəxslə bağlı fərziyyələrin yoxlanması imkanının mövcud olması) müddətdə cinayət işi üzrə icraat AR CPM-in 53.1.1-ci maddəsi ilə dayandırıla bilməz.

İkinci fəslin **«Təqsirləndirilən şəxs olmadıqda iş üzrə icraatın dayandırılması»** adlanan üçüncü yarımfəslində qeyd edilir ki, AR CPM-in 53.1.2-ci maddəsinə əsasən, təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin olduğu yer müəyyən olunmadıqda, 53.1.3-cü maddəsinə əsasən isə təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs istintaqdan və ya məhkəmədən gizləndikdə cinayət təqibi üzrə icraat dayandırıla bilər. Göründüyü kimi, hər iki əsas ayrı-ayrı maddələrdə təsbit olunsa da, mahiyyətcə təqsinləndirilən şəxsin cinayət prosesində iştirak etməsini istisna edən halları ifadə edirlər və təcrübədə bəzən onlar qarışıq salınırlar.

Qanunun «şəxs istintaq və ya məhkəmədən gizləndikdə» ifadəsini təqsirləndirilən şəxsin şüurlu surətdə cinayət məsuliyyətindən boyun qaçırması və bunun nəticəsində cinayət prosesini həyata keçirən orqanların onun axtarışını aparmağa məcbur olması kimi başa düşmək lazımdır. Nəzərdən keçirilən kateqoriyaların izahına şübhəli və ya təqsirləndirilən şəxsin istintaqdan və ya məhkəmədən boyun qaçırmamaq vəzifəsi kontekstindən də baxmaq olar. Bu zaman qeyd etmək lazımdır ki, «istintaqdan və məhkəmədən boyun qaçırmamaq» vəzifəsi «istintaq və məhkəmə orqanlarının çağırışı ilə gəlmək» vəzifəsini tam əhatə etmir. Çünki sonuncu vəzifənin yerinə yetirilməməsinə, hətta üzrlü səbəblər olmadan belə yol verildikdə, burada məqsəd heç də həmişə cinayət məsuliyyətindən yayınmaq olmur. Bunun səbəbləri bəzən əslində üzrlü olmayan, lakin təqsirləndirilən şəxs tərəfindən səlahiyyətli orqanların çağırışı ilə gəlməkdən daha üstün tutulan bir hərəkətin edilməsi ola bilər.

Cinayət işi üzrə icraatın dayandırılmasının nəzərdən keçirilən əsası daha bir hüquqi institut – cinayət məsuliyyətinə cəlb etmə müddətləri ilə sıx əlaqəlidir. Məsələ burasındadır ki, ibtidai istintaqda cinayət işi üzrə icraat AR CPM-in 53.1.3-cü maddəsində nəzərdə tutulmuş əsasla, yəni təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin istintaqdan və ya məhkəmədən gizlənməsi səbəbindən dayandırıldığı hallarda istintaq müddətlərinin axımı ilə yanaşı, cinayət məsuliyyətinə cəlb etmə

müddətlərinin də axımı dayanır və sonuncunun axımı yalnız həmin şəxs tutulduğu və ya könüllü gəlib təqsirini boynuna aldığı vaxtdan bərpa olunur. Hesab edirik ki, AR CM-in 75.3-cü maddəsində cinayət məsuliyyətinə cəlb etmə müddətlərinin bərpası anının müəyyən edilməsi zamanı bir qədər də təkmilləşdirilmə işi aparmaq mümkündür. Belə ki, həmin maddədə yalnız şəxsin «tutulması» və «könüllü gəlib təqsirini boynuna alması» halları dayandırılmış cinayət məsuliyyətinə cəlb etmə müddətlərinin bərpası əsasları kimi göstərilsə də, hesab edirik ki, bu əsasların sırasına «təslim olma»nın da əlavə edilməsi zəruridir, çünki bəzi həyati hallarda istintaqdan gizlənmiş şəxsin hüquq-mühafizə orqanlarına təslim olması onun tutulması və ya könüllü gəlib təqsirini boynuna alması anlayışları ilə ehtiva edilmir.

Dissertasiyanın ikinci fəslinin **«Təqsirləndirilən şəxs xəstə olduqda və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda olduqda iş üzrə icraatın dayandırılması»** adlanan dördüncü yarımfəslində göstərilir ki, AR CPM-in 53.1.4-cü maddəsinə əsasən, təqsirləndirilən şəxsin ağır xəstəliyi və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda olması ilə əlaqədar cinayət prosesində iştirakının müvəqqəti mümkün olmaması cinayət təqibi üzrə icraatın dayandırılması üçün əsas kimi çıxış edir. Göründüyü kimi, nəzərdən keçirilən norma əslində cinayət işi üzrə icraatın dayandırılmasının iki müstəqil əsasını müəyyən etmişdir. Xəstəliyin ağır və ya qeyri-ağır kimi növlərə bölgüsü onların təsnifatının mövcudluğunu şərtləndirir. Deməli, ilk növbədə, xəstəliklərin təsnifatı məsələsinə aydınlıq gətirilməlidir. Fikrimizcə, bunun üçün ən mötəbər mənbə Xəstəliklərin Beynəlxalq Təsnifatı ola bilər. Lakin Beynəlxalq Səhiyyə Təşkilatının rəhbərliyi və nəzarəti altında aparılmış təsnifatda belə, hər hansı bir xəstəlik növünün digərindən daha ağır olub-olmaması kriteriyası rəhbər tutulmur, əslində hər bir xəstəliyin müxtəlif, yəni ağır və ya yüngül formalarından söhbət aparmaq daha məqsədəmüvafiqdir. Bu səbəbdən, AR CPM-in 53.1.4-cü maddəsində ifadə edilmiş «ağır xəstəlik» termini altında xəstəliyin bu və ya digər növünü (növlərini) deyil, istənilən bir xəstəliyin dərəcəsi anlamında ağırlığını başa düşmək lazımdır.

Qanunda şəxsin cinayət prosesində iştirakının qeyri-mümkünlüyü xəstəliyin ağırlıq dərəcəsinin nəticəsi kimi nəzərdə tutulmuşdur. Başqa sözlə, təqsirləndirilən şəxsin hər hansı bir xəstəliyin ağır formasından əziyyət çəkməsi özü-özlüyündə cinayət işi üzrə icraatın dayandırılması üçün əsas kimi çıxış etmir, lakin həmin xəstəlik onun cinayət prosesində

iştirakını qeyri-mümkün edirsə, bu zaman cinayət işi üzrə icraatın dayandırılmasına yol verilir.

Xəstəliyin ağırlıq dərəcəsi və onun səbəb olduğu nəticələr yalnız xüsusi biliklərin tətbiqi ilə müəyyən edilə bilər. AR CPM-in 53.3.4-cü maddəsinə əsasən, cinayət işi üzrə icraatın AR CPM-in 53.1.4-cü maddəsində nəzərdə tutulmuş əsasla dayandırılması üçün stasionar tibb müəssisəsinin şəxsin ağır xəstəliyini təsdiq edən tibbi rəyi mövcud olmalıdır.

Təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının hüdudlarından kənarda olması ilə əlaqədar cinayət prosesində iştirakının müvəqqəti mümkün olmaması da ibtidai istintaq mərhələsində cinayət işi üzrə icraatın dayandırılması üçün əsasdır (*AR CPM-in 53.1.4-cü maddəsi*). Qeyd edilən əsasla cinayət işinin dayandırılması üçün aşağıdakılar tələb olunur: 1) şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar olmalıdır; 2) təqsirləndirilən şəxs Azərbaycan Respublikasının hüdudlarından kənarda olmalıdır; 3) təhqiqat orqanı şəxsin Azərbaycan Respublikasının hüdudlarından kənarda olması barədə məlumata malik olmalıdır.

İşin ikinci fəslinin **«Cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində təqib olunan şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi və ya xarici dövlət tərəfindən verilməsi məsələlərinin həlli ilə bağlı icraatın dayandırılması»** adlanan beşinci yarımfəslində qeyd edilir ki, AR CPM-in 53.1.5-ci maddəsinə görə, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində təqib olunan şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi və ya xarici dövlət tərəfindən verilməsi məsələsi qanunla müəyyən olunmuş qaydada qoyulduqda cinayət təqibi üzrə icraat dayandırılır. Burada AR CPM-in 53.1.4-cü maddəsində olduğu kimi, iki müstəqil və qarşılıqlı əlaqədə olmayan əsas nəzərdə tutulmuşdur.

Qanunla müəyyən edilmiş qaydada toxunulmazlıq hüququndan məhrum etmə məsələsi qoyulduğu hallarda iş üzrə icraatın dayandırılmasının xüsusiyyəti ondan ibarətdir ki, elə kateqoriya şəxslər vardır ki, onlar barəsində toxunulmazlıq hüququna xitam verilmədən hər hansı hərəkəti həyata keçirmək olmaz. Bu əsasla cinayət işi üzrə icraatı davam etdirmək üçün aşağıdakı məsələləri həll etmək lazımdır: şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərarın qəbul edilməsi; şəxsin toxunulmazlıq hüququna malik olması; şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi barədə AR Baş Prokurorunun təqdimatının olması.

Toxunulmazlıq hüququnun mahiyyəti onda ifadə olunur ki, şəxs bu hüquqdan məhrum oluna, cinayət məsuliyyətinə cəlb edilə, öz razılığı olmadan axtarışa məruz qala, müayinə edilə və dindirilə bilməz. Qüvvədə olan qanunvericilik kifayət qədər geniş şəxslər dairəsi barəsində cinayət işinin başlanılmasının, prosessual məcburiyyət tədbirlərinin tətbiqinin və cinayət məsuliyyətinə cəlbetmənin xüsusi qaydasını müəyyən edir.

AR CPM-in 53.3.4-cü maddəsinə görə belə şəxslərə münasibətdə cinayət işinin dayandırılması üçün şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi barədə Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı tələb olunur. Bununla belə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatının toxunulmazlığına yalnız Naxçıvan Muxtar Respublikasının prokurorunun təqdimatına əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə xitam verilə bilər. Buna müvafiq olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatının toxunulmazlıqdan məhrum edilməsi məsələsi Naxçıvan Muxtar Respublikasının prokuroru tərəfindən həll edilməlidir. Ona görə də, AR CPM-in 53.3.4-cü maddəsində «şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi barədə Azərbaycan Respublikasının Baş prokurorunun təqdimatı» sözlərinin «şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi barədə müvafiq olaraq Azərbaycan Respublikası Baş prokurorunun və Naxçıvan Muxtar Respublikası prokurorunun təqdimatı» sözləri ilə əvəz olunmasını məqsədəmüvafiq hesab edirik.

Dissertasiyanın ikinci fəslinin **«Cinayət işi üzrə icraatın dayandırılması əsaslarının sayının artırılması problemi»** adlanan altıncı yarımfəslində qeyd edilir ki, AR CPM-dən fərqli olaraq, RF CPM-də dayandırmanın daha bir əsası kimi təqsirləndirilən şəxsin olduğu yerin məlum olduğu, lakin onun ibtidai istintaqda iştirakının reallıqda mümkün olmadığı hal göstərilmişdir (RF CPM-in 208-ci maddəsinin 3-cü hissəsi). Bu əsas, müvafiq olaraq, AR CPM-in 53.1.4-cü maddəsində təsbit edilmiş əsasa, yəni təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının hüdudlarından kənarda olması əsasına da şamil edilir.

Bir sıra ölkələrin cinayət-prosessual qanunvericiliyində bu əsasın təsbit edilməsi təbii haldır, çünki belə ölkələr böyük əraziyə və çətin gedilə bilən regionlara malik olurlar. Lakin məsələ burasındadır ki, təqsirləndirilən şəxsin olduğu yerin məlum olduğu, lakin onun cinayət işində iştirakının reallıqda mümkün olmadığı hallar respublikamızın coğrafiyası üçün də xarakterikdir. Nəzərə almaq lazımdır ki,

respublikamızın ərazisinin böyük hissəsini hündür dağlar təşkil edir. Ölkəmizdə dəniz səviyyəsindən 1500-2000 metr hündürlükdə yerləşən çoxlu yaşayış məntəqələri vardır və xüsusən də, qış vaxtlarında həmin məntəqələrlə hər hansı əlaqə olduqca çətin olur. Təqsirləndirilən şəxs hər hansı cinayətin törədilməsində öz təqsirini etiraf etməklə, özünün cinayət məsuliyyətinə cəlb edilməsi barədə bilərək, lakin ilin qış fəslində pis hava şəraitinə görə müstəntiqin çağırışına gəlməyə bilər.

Coğrafi xüsusiyyətlərlə bağlı olmayan digər hallar da mümkündür. Məsələn, əgər təqsirləndirilən şəxs ticarət gəmisinin üzvü kimi heyətin tərkibində bir neçə ay müddətinə dəniz səfərinə çıxmışdırsa, bu halda yalnız həmin şəxsin müstəntiqə təhvil verilməsi üçün gəminin səfəri təxirə salınaraq limana qayıtması olduqca problemli məsələdir. Fikrimizcə, bu halda ibtidai istintaq mərhələsində cinayət işi üzrə icraat AR CPM-in 53.1.2-ci və ya 53.1.3-cü maddələri əsasında dayandırıla bilər, çünki təqsirləndirilən şəxsin olduğu yer məlum olduğundan həmin yerin müəyyən edilməsi üzrə axtarış hərəkətlərinin həyata keçirilməsinə zərurət yoxdur, lakin kifayət qədər uzun müddət ərzində onun ibtidai istintaqda iştirakının təmin edilməsi mümkün deyildir. Eyni qayda, öz əməkdaşlarını, azərbaycan vətəndaşlarını müxtəlif dövlətlərə uzun müddətə ezam edən xarici dövlətlərin müxtəlif ticarət və diplomatik nümayəndəliklərinin əməkdaşlarına da aiddir.

Təqsirləndirilən şəxs müalicəyə getmə, məzuniyyətə çıxma, hərbi xidmətə çağırılma və s. ilə bağlı öz yaşayış yerini tərk etdikdə və onun olduğu məntəqə məlum olduqda və qısa müddət ərzində çağırma və ya gətirilmə vasitəsilə onun istintaq hərəkətlərində iştirakının təmin edilməsi mümkün olduqda, iş üzrə icraat müddəti uzadılmalı və araşdırmanın başa çatdırılması üçün tədbirlər görülməlidir.

Göstərilən hallar AR CPM-in 53.1-ci maddəsində təqsirləndirilən şəxsin olduğu yerin məlum olduğu, lakin onun ibtidai istintaqda iştirakının reallıqda mümkün olmadığı halları nəzərdə tutan əsasın təsbit edilməsinin zəruriliyini göstərir. Hesab edirik ki, bu əsas təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının hüdudlarından kənarda olması əsası ilə birlikdə təsbit edilməlidir. AR CPM-in 53.1-ci maddəsinə təklif edilən bənd aşağıdakı kimi verilə bilər: «53.1.4 … Azərbaycan Respublikasının hüdudlarından kənarda olması və ya cinayət prosesində iştirakına reallıqda imkan olmaması ilə bağlı cinayət prosesində iştirakı müvəqqəti olaraq mümkün olmadıqda».

Cinayət məsuliyyətindən azad etmə problemlərini araşdıran bir çox müəlliflər belə bir məqama diqqət çəkirlər ki, təqsirləndirilən şəxs heç

də həmişə cinayət işinin xitam edilməsi haqqında qərarın qəbul edildiyi an üçün vurulmuş zərəri ödəyə, zərər çəkmişin maddi tələblərini təmin edə bilməz. AR CM-in 72.1 və 73-cü maddələrinin hərfi təfsiri zərərin ödənilməsi də daxil olmaqla, qanunda göstərilən bütün hərəkətlərin yerinə yetirilməsinin zəruriliyi ilə bağlı nəticəyə gəlməyə imkan verir. Əlbəttə ki, bunu etmək o qədər də asan deyildir. Bir sıra müəlliflər yuxarıda qeyd edilən vəziyyətdən çıxış yolunu cinayət işinə şərti xitam vermə institutunun qanunvericilikdə təsbit və təcrübədə tətbiq edilməsində görürlər. Lakin biz, bu halda cinayət işi üzrə icraatın dayandırılması institutunun tətbiqi imkanının daha məqbul olması fikrini bildirən müəlliflərlə (*məsələn, Y. Çerkasova, R. Maqsudov, M. Flyamer və s.*) razılaşmağa üstünlük veririk.

Cinayət işini xitam edərkən, müstəntiq qətimkan tədbirlərini ləğv etməli və maddi sübutların taleyini həll etməlidir – onları sahibinə qaytarmalıdır, məhv etməlidir və s., əks halda icraat təzələndikdən sonra sübutetmədə əlavə çətinliklər yarana bilər. Bu çatışmazlıqlardan elə araşdırma dayandırılan zaman yaxa qurtarmaq olar.

Fikrimizcə, şərti xitametmə ilə müqayisədə icraat dayandırılan zaman təqsirləndirilən şəxslər zərəri daha həvəslə ödəyəcək, belə ki, cinayət məsuliyyətindən azad etmə məsələsinin həll edilmədiyini düşünmək onlara müsbət təhrikedici psixoloji təsir göstərəcək. Bu halda, qərarın qəbul edilməsi alqoritmi aşağıdakı kimi ola bilər: 1) zərər çəkmiş və təqsirləndirilən şəxs müdafiəçi və nümayəndənin iştirakı ilə öz aralarında vurulmuş zərərin ödənilməsi qaydası və müddətləri barədə saziş bağlayırlar; 2) onlar sazişdə göstərilən müddətə ibtidai istintaqın dayandırılması haqqında vəsatətlə müstəntiqə müraciət edirlər; 3) müstəntiq cinayət işi üzrə icraatı dayandırır.

Hesab edirik ki, bu halda ibtidai araşdırmanın dayandırıla biləcəyi müddət əvvəlcədən qanunda göstərilməli və bir ildən çox olmamalıdır. Qeyd olunanlar əsasında, ibtidai istintaqın dayandırılması üçün bu əsasın aşağıdakı kimi ifadə edilərək AR CPM- də təsbit olunmasını təklif etmək olar: «53.1-1. cinayət nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi barədə təqsirləndirilən və zərər çəkmiş şəxslər arasında sazişə nail olunması ilə bağlı müstəntiq ibtidai istintaqı həmin sazişin yerinə yetirildiyi müddət ərzində, lakin bir ildən çox olmamaqla dayandıra bilər».

Fikrimizcə, əgər qanuna bu əlavə edilərsə, zərər çəkmişin əmlak hüquqlarının yüksək səviyyədə müdafiəsini təmin edəcək və cinayət mühakimə icraatının təyinatına uyğun olacaq.

İkinci fəslin **«İbtidai istintaq mərhələsində cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsi əsasları və prosessual qaydası»** adlanan yeddinci yarımfəslində göstərilir ki, AR CPM-in 279.1-ci maddəsinə əsasən, «cinayət işi üzrə dayandırılmış icraat müstəntiqin qərarı ilə aşağıdakı hallarda təzələnir». Bu cümlədən məlum olur ki, cinayət işi üzrə dayandırılmış icraatı təzələmək səlahiyyətinə malik olan subyektlərin dairəsini və buna yol verilən halların sistemini **qanun** müəyyən edir. Qanunda nəzərdə tutulmamış subyektlər tərəfindən və qanunda nəzərdə tutulmamış hallarda cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsinə yol verilmir. Belə olan təqdirdə, həmin cümlədə yalnız müstəntiqin adının çəkilməsi müəyyən qədər mübahisəlidir. Məntiqə əsasən, cinayət işinin təzələnməsi haqqında qərarı qəbul etmək hüququ cinayət işi üzrə icraatın dayandırılması haqqında qərarı qəbul edən subyektə məxsus olmalıdır. Eyni zamanda məlumdur ki, cinayət prosesinin məhkəməyədək icraat mərhələsində cinayət işinin dayandırılması haqqında qərar ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən də qəbul edilə bilər. Deməli, dayandırılmış cinayət işi üzrə icraatın təzələnməsi haqqında qərarı müstəntiqlə yanaşı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror da qəbul edə bilər.

Cinayət işi üzrə icraatın dayandırılması, bir qayda olaraq, cinayət-prosessual fəaliyyətdə müvəqqəti fasilə kimi çıxış edir və bu, o deməkdir ki, müəyyən müddət sonra – adətən, cinayət işi üzrə icraatın dayandırılması üçün səbəb kimi çıxış etmiş halların aradan qalxmasından sonra, cinayət işi üzrə icraat təzələnəcəkdir. Bu təzələnmə aktı prosessual əhəmiyyətli nəticələrə səbəb olduğundan, eləcə də iş üzrə icraata bu və ya digər formada cəlb olunmuş şəxslərin hüquqları və qanuni mənafeləri ilə bağlı olduğundan onun həyata keçirilməsinin prosessual forması qanunla dəqiq şəkildə tənzimlənməli, belə tənzimetmə zamanı hüquqi qeyri-müəyyənliyə yol verilməməlidir.

Qüvvədə olan AR CPM-in 279-cu maddəsi məhz bu vəzifənin həllinə, yəni cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsinin prosessual formasının müəyyən edilməsinə yönəlmişdir. Bununla belə, tərəfimizdən həmin maddənin təhlil edilməsi bizə belə bir fikir irəli sürməyə əsas verir ki, qüvvədə olan cinayət-prosessual qanunvericilikdə cinayət işləri üzrə dayandırılmış icraatın təzələnməsinin prosessual formasının müəyyən məqamlarda təkmilləşdirilməsinə ehtiyac duyulur.

Məsələn, hesab edirik ki, AR CPM-in 279.1-ci maddəsində icraatın təzələnməsi subyektlərinə dair müddəa təkmilləşdirilməli və maddəyə ***«müstəntiqin»*** sözündən sonra ***«prokurorun və ya məhkəmənin»*** sözləri əlavə edilməlidir. Bundan başqa, AR CPM-in 279-cu maddəsində cinayət işi üzrə dayandırılmış icraatın müstəntiqin qərarı ilə təzələnməli olmasından bəhs edilsə də, həmin qərarın məzmunu barədə heç bir müddəa nəzərdə tutulmamışdır. Başqa sözlə, AR CPM-də icraatın təzələnməsi haqqında qərarın məzmununa daxil edilməli olan məsələlərin sistemi müəyyən edilmir, bu isə, öz növbəsində, cinayət-prosessual hüququn tətbiq edilməsi təcrübəsində həmin qərarların vahid prosessual formadan kənar, kifayət qədər əsaslandırılmadan qəbul edilməsi kimi mənfi nəticələrə səbəb ola bilər.

Dissertasiyanın üçüncü fəsli **«İbtidai istintaq mərhələsində cinayət işi üzrə icraatın dayandırılması və dayandırılmış icraatın təzələnməsi zamanı müstəntiqin və ya təhqiqat orqanının fəaliyyəti»** adlanır. Üçüncü fəsil iki yarımfəsli əhatə edir.

Üçüncü fəslin **«İcraatı dayandırılmış iş üzrə müstəntiqin fəaliyyəti»** adlanan birinci yarımfəslində qeyd edilir ki, cinayət təqibi üzrə icraatın dayandırılması institutunun öz təyinatı üzrə məqsədinə nail olunması çox zaman cinayətkarlığa qarşı mübarizə aparan orqanların sistematik şəkildə qarşılıqlı əlaqədə fəaliyyət göstərməsini tələb edir. Belə qarşılıqlı əlaqə cinayət işi üzrə icraatın dayandırılması zamanı əhəmiyyətli olduğu kimi, cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsi zamanı da əhəmiyyətlidir. İbtidai istintaq mərhələsində cinayət işi üzrə icraatın dayandırılması, işin dayandırılmış vəziyyətdə qaldığı müddət və cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsi zamanı üç dövlət orqanının (vəzifəli şəxsin) fəaliyyətinin səviyyəsi cinayət işi üzrə icraatın dayandırılması və təzələnməsi institutunun səmərəli olub-olmamasını şərtləndirən amil kimi çıxış edir. Həmin dövlət orqanlarına (vəzifəli şəxslərə) cinayət işi üzrə icraatın dayandırılması haqqında prosessual qərar qəbul etmiş müstəntiq, icraatı dayandırılan cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror (prosessual nəzarət funksiyasının həyata keçirilməsi kontekstindən burada məhkəmə nəzarətini həyata keçirən məhkəmənin də adını çəkmək mümkündür) və icraatı dayandırılmış iş üzrə əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə dair tapşırıq almış təhqiqat orqanı aiddir.

Cinayət işi üzrə icraatın dayandırılması haqqında qərar qəbul edən subyekt kimi, ilk növbədə, müstəntiqin fəaliyyətinin alqoritminə diqqət

yetirmək lazımdır. Cinayət işi üzrə icraatın dayandırılması zamanı müstəntiq tərəfindən edilməli olan ilk hərəkət – cinayət təqibi üzrə icraatın dayandırılması üçün real olaraq hüquqi və faktiki əsasın mövcud olub-olmamasının qiymətləndirilməsidir. Bundan sonra müstəntiq tərəfindən iş üzrə icraatın dayandırılmasına qədər həyata keçirilməsi mümkün olan istintaq hərəkətlərinin hamısının həyata keçirilib-keçirilmədiyi müəyyənləşdirilməlidir. Nəhayət, cinayət işi üzrə icraatın dayandırılması ilə bağlı müstəntiq işin dayandırılmasına səbəb olmuş halların aradan qaldırılması üçün tədbirlər görməlidir. Dayandırılmış icraatın təzələnməsi ilə bağlı müstəntiqin fəaliyyətinə gəlincə isə qeyd etmək lazımdır ki, müstəntiq bu zaman yenə də icraatın təzələnməsi üçün faktiki və hüquqi əsasların mövcudluğunu – xüsusilə icraatın dayandırılmasına səbəb olmuş halın aradan qalxması səviyyəsini qiymətləndirməli, bu qiyməti qəbul etdiyi qərarda əks etdirməli və icraatı dayandırılmış iş üzrə icraatın təzələnməsi haqqında qərarın qəbul edilməsi barədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və digər maraqlı şəxslərə məlumat verməlidir.

İbtidai araşdırma mərhələsində prosessual nəzarət subyektləri olan ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və məhkəmə nəzarətini həyata keçirən məhkəmənin cinayət işi üzrə icraatın dayandırılması zamanı fəaliyyəti icraatın dayandırılması haqqında qərarın qanuniliyi və əsaslılığının yoxlanılmasına yönəlmişdir.

Üçüncü fəslin **«İcraatı dayandırılmış iş üzrə təhqiqat orqanının fəaliyyəti»** adlanan ikinci yarımfəslində isə qeyd edilir ki, cinayət işi üzrə icraatın dayandırılması və təzələnməsi ilə bağlı təhqiqat orqanı bilavasitə qərar qəbul edən dövlət orqanı kimi çıxış etməsə də, Azərbaycan Respublikasının cinayət prosesinin hazırki konsepsiyasında dayandırılmış icraat üzrə cinayət törətmiş şəxsin ifşası istiqamətində əsas qüvvə kimi çıxış edir. Bunun səbəbi ondadır ki, Azərbaycan Respublikasının cinayət prosesində icraatı dayandırılmış cinayət işi üzrə istintaq hərəkətlərinin aparılmasına yol verilmir (AR CPM-in 277.6-cı maddəsi) və buna görə də, cinayət işi üzrə ifşaedici fəaliyyətin əsas vasitəsi kimi əməliyyat-axtarış fəaliyyəti çıxış edir. Qüvvədə olan qanunvericilik icraatı dayandırılmış iş üzrə həyata keçirilməsinə yol verilən əməliyyat-axtarış tədbirlərinin dairəsini məhdudlaşdırmadığı üçün belə qənaətə gəlmək olar ki, icraatı dayandırılmış iş üzrə təhqiqat orqanı qanunla nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirlərinin istənilən birini həyata keçirə bilər.

İbtidai istintaq mərhələsində cinayət işi üzrə icraatın dayandırılması və təzələnməsi ilə əlaqədar müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən təhqiqat orqanının qarşılıqlı əlaqəsindən bəhs edərkən, qeyd edilməlidir ki, belə qarşılıqlı əlaqə əslində təkcə iş üzrə icraatın dayandırılması ilə bağlı yaranmır və bir qayda olaraq, cinayət işi üzrə icraatın bütün gedişatı boyu mövcud olur. Bu zaman nəzərə almaq lazımdır ki, müstəntiq və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror arasındakı qarşılıqlı əlaqə hər zaman nəzarət-tabeçilik xarakterli münasibətlər daxilində mövcud olsa da, müstəntiqlə təhqiqat orqanı arasında qarşılıqlı əlaqə, bir qayda olaraq, mürəkkəb cinayət işləri üzrə yaranır və istintaqı aparılan cinayət işi üzrə əhəmiyyət kəsb edən halların aydınlaşdırılması üçün prosessual vasitələrlə yanaşı əməliyyat-axtarış vasitələrinə duyulan ehtiyacla şərtlənir.

**Tədqiqat işi ilə əlaqədar müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**

1. Участие прокурора в судебном заседании // Bakı Dövlət Universitetinin 85-illik yubileyinə həsr olunmuş hüquq fakültəsi magistrantlarının 4-cü elmi-praktiki konfransının materialları (11-12 mart), Bakı – 2004, s. 109-110.
2. Государственное обвинение – одна из гарантий законности в правосудии // Bakı Dövlət Universitetinin 85-illik yubileyinə həsr olunmuş hüquq fakültəsi magistrantlarının 4-cü elmi-praktiki konfransının materialları (11-12 mart), Bakı – 2004, s. 119-120.
3. Понятие приостановления уголовно-процессуальной деятельности // Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri, Bakı – 2008, s. 432-439.
4. Приостановление производства по делу в случае отсутствия обвиняемого // Вестник центра исследований проблем терроризма. № 3 (17), Ставрополь, 2008, с. 113-125.
5. Проблемы расширения перечня оснований для приостановления производства по уголовному делу // Qanun, № 1 (177), Bakı, 2009, s. 113-119.
6. Cinayət işi üzrə icraatın dayandırılmasının anlayışı // Ümumilli liderimiz Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş «Dövlət və hüquq quruculuğunun aktual problemləri»

mövzusunda 11-ci respublika elmi-praktiki konfransının materialları. ЫЫ cild. Bakı, 2011, s. 187-188.

7. Cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsi // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri (elmi əsərlər məcmuəsi), Bakı, № 53, 2011, s. 27-30.

8. Təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs müəyyən edilmədikdə ibtidai istintaqın dayandırılması problemləri // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri (elmi əsərlər məcmuəsi), Bakı, № 57, 2012, s. 98-103.

9. İbtidai istintaq mərhələsində cinayət işi üzrə icraatın dayandırılması zamanı müstəntiqin və təhqiqat orqanının qarşılıqlı əlaqəsi // «Qloballaşma dövründə insan hüquqları və mili hüquq sistemləri». Beynəlxalq Elmi-praktiki konfrans materialları (13-14 dekabr 2012-ci il); II, Bakı – 2013, s. 609-615.

10. İbtidai istintaqın təzələnməsinin prosessual qaydasının təkmilləşdirilməsinə dair mülahizələr // Nəqliyyat hüququ, 2013, № 2, s. 247-252.

11. Приостановление производства по делу в случае заболевания обвиняемого по законодательству Азербайджанской Республики // Сборник материалов Международной юридической научно-практической конференции «Человек, общество и государство в условиях реформ и инноваций», 25 февраля 2016 г., Украина, Киев – 2016, с. 164-169.

**Махмудов Рашид Бахруз оглу**

**Приостановление и возобновление производства по уголовному делу на стадии предварительного следствия по уголовно-процессуальному законодательству Азербайджанской Республики**

**Резюме**


Данная работа выполнена с целью выявления проблем, связанных с исследуемым институтом, и разработки путей разрешения выявленных пробелов.

Диссертация состоит из введения, трех глав, заключения и списка литературы.

Во введении дается общая характеристика работы.

В первой главе, именуемой «Общая характеристика институтов приостановления уголовного дела и возобновления приостановленного производства по уголовному делу», рассмотрены вопросы генезиса, истории развития, понятия и процессуального назначения вышеназванных институтов.

Во второй главе, именуемой «Содержание и правовое регулирование оснований, условий и процессуального порядка приостановления уголовно-процессуальной деятельности на стадии предварительного следствия», рассмотрены общая характеристика оснований для приостановления производства по уголовному делу, содержание отдельных оснований для приостановления производства и порядок возобновления приостановленного производства.

В третьей главе, именуемой «Деятельность следователя или органа дознания при приостановлении, либо возобновлении производства по уголовному делу на стадии предварительного следствия», рассмотрены алгоритмы деятельности следователя, прокурора, суда и органа дознания в связи с приостановлением, либо возобновлением приостановленного производства по уголовному преследованию.

В заключении подытоживаются основные результаты научно-исследовательской работы.

**Makhmudov Rashid Bakhruz oglu**

**Suspension and renewal of criminal proceeding at a stage of pretrial investigation by the criminal procedure legislation of Azerbaijan Republic**

**Summary**

This work is performed for the purpose of identification of the problems connected with the researched institute and development of ways of permission of the revealed gaps.

The thesis consists of introduction, three chapters, the conclusion and the list of references.

The general characteristic of work are given in introduction.

In chapter 1 which is referred to as "A general characteristic of institutes of suspension of criminal case and renewal of the suspended criminal proceeding" questions of genesis, history of development, a concept and procedural appointment of the above-named institutes are considered.

In chapter 2, which is referred to as "Content and legal regulation of the bases, conditions and a procedural order of suspension of criminal procedure activities at a stage of pretrial investigation", the general characteristic of the bases for suspension of criminal proceeding, content of the separate bases for suspension of production and an order of renewal of the suspended productions are considered.

In chapter 3 which is referred to as "Activities of the investigating officer or body of inquiry in case of suspension, or renewal of criminal proceeding at a stage of pretrial investigation" algorithms of activities of the investigating officer, prosecutor, court and body of inquiry in connection with suspension, or renewal of the suspended production on criminal prosecution are considered.

In conclusion the main results of research work were resumed.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ**

*На правах рукописи*

**МАХМУДОВ РАШИД БАХРУЗ ОГЛЫ**

# ПРИОСТАНОВЛЕНИЕ И ВОЗОБНОВЛЕНИЕ ПРОИЗВОДСТВА ПО УГОЛОВНОМУ ДЕЛУ НА СТАДИИ ПРЕДВАРИТЕЛЬНОГО СЛЕДСТВИЯ ПО УГОЛОВНО-ПРОЦЕССУАЛЬНОМУ ЗАКОНОДАТЕЛЬСТВУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

5612.01 - уголовный процесс, криминалистика и судебная экспертиза; оперативно-розыскная деятельность

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по праву

**Баку – 2016**